Rauf Məmmədov, Ralib Məmmədov, Abuzər Məmmədov, müvafiq qaydada həyata keçirilsin 25.09.2014

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 26.01.2012-ci il tarixli 6 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.1.1-ci bəndinə əsasən gənclər arasında zərərli vərdişlərin profilaktikasını, xüsusən tütünsüz həyat tərzinin təbliğini əhatə edən çap materiallarının (bukletlər, plakatlar, kitabçalar və s.) hazırlanması İctimai Səhiyyə və İslahatlar Mərkəzinə (İSİM) həvalə edilib. Həmin materialların sonradan KİV ilə yayılması nəzərdə tutulur.

Bununla bağlı İSİM tərəfindən 2014-cü ilin sonunadək gənclər, xüsusi ilə də tələbələr üçün sağlam həyat tərzinin təbliği məqsədilə əvvəllər İSİM tərəfindən hazırlanmış "Siqaretin zərərləri", "Fəal ol, sağlam ol, həyat boyu qalib ol!", "Vərəm və ondan qorunma yolları – bunları bilmək vacibdir", "Yol hərəkəti təhlükəsizliyi və gənclər barədə 10 fakt" və "İİV və hepatit B, C – bunları bilmək vacibdir" bukletlərinin hər birindən 10000 ədəd yenidən çap olunması təklif olunur.

Yuxarıda göstərilənlərlə bağlı müvafiq göstəriş verməyinizi Sizdən xahiş edirəm.

**Əhalinin sağlamlığı**
**şöbəsinin müdiri** **Tofiq Musayev**

25.09.2014